Kredo.-2022.-2 fevral.-S.14.

# Murad və İlaydanın atası

Əziz oxucular! Tarixən qədim zamanlardan ermənilər öz havadarlarının vasitəsi ilə xalqımızı öz torpaqlarımızdan sıxışdıraraq, qətliyamlar törədərək çıxarmışlar. Hələ 1905-ci ildən neçə-neçə qətliyamlar törətdiklərini tarixdən oxusaq da, yaşadığımız tarixi dövrdən, 1988-ci ildən bəri isə artıq ermənilər azğınlaşaraq 1992-ci ilin 26 fevralında bir daha Xocalı soyqırımını törədərək uşağa, qocaya, qadına baxmadan yenidən qətliyam törətdilər. Sovet İttifaqının dağılmasından istifadə edən bəziləri isə vəzifə davası edirdilər. Bu fürsətdən istifadə edən erməni seperatçıları torpaqlarımızın 20 faizini işğal etmişdilər. Ümummilli Lider Heydər Əliyev cənablarının qayıdışından sonra 1994-cü ildə mənfur qonşumuz ermənilərlə sülh müqaviləsi bağlandı. Sülh müqaviləsinin bağlanmağına baxmayaraq dişlərinə qan dəyən vəhşi canavar kimi atəşkəsi pozur, hətta mülki vətəndaşları və yaşayış evlərini atəşə tuturdular. 2016-cı ildə aprel döyüşləri zamanı Tovuzu ələ keçirmək istədilər. Ordumuz onlara yaxşıca dərs verərək düşmənin 15-dən artıq canlı qüvvəsini məhv etmiş, 20 əsgəri isə yaralı halda silahı ataraq qaçıb canlarını qurtarmışlar. 27 sentyabr 2020-ci ildə təzədən təxribata əl atdılar, bu zaman artıq cana doymuş ordumuz, xalqımız, müzəffər komandan hörmətli İlham Əliyev cənabları əkshücum qərarını verdikdə, Azərbaycan xalqı ordumuza dəstək olaraq İlham Əliyev cənablarının ətrafında bir yumruq kimi zəncirvari birləşərək bir amal uğrunda torpaqlarımızı azad etmək üçün ayağa qalxdı. Ermənilərin olmayan mif ordusunu 44 gün ərzində yox edərək torpaqlarımızı işğaldan azad etdilər. Erməni seperatçıları minlərlə silah və sursatlarını yerə atıb qaçmış və fərarilik etmişlər. Hal-hazırda onların atıb qaçdığı silah-sursatı işlək və sıradan çıxmış texnikaları bizim tarixi qan yaddaş muzeyimizdədir. Xarici vətəndaşlar onları bizim tarixi qan yaddaş muzeyimizdə gördükdə həm havadarları, həm də ermənilər bütün dünyada xar olurlar. İndi artıq dünya bizdən hərbi təlim məktəbi öyrənir. Dövlət tolerant dövlət olduğu üçün dünyanın ədalətinə, ATƏT-ə inanaraq istəyirdik ki, sülh yolu ilə torpaqlarımızı geri alaq. Buna məhəl qoymayan ədalətsiz dövlətlər və ermənilər bizi məcbur etdi ki, biz torpaqlarımızı öz qəhrəman oğullarımızın gücü ilə geri alaq. Qoy bütün dünya bilsin ki, bizim şanlı ordumuzun qəhrəman oğulları torpaqlarımızı müdafiə etməyə qadirdir. Belə qəhrəmanlardan biri ilə sizi tanış etmək istəyirəm.



Qasımov Şöhrət Şakir oğlu 16.08.1992-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. İlk təhsilini 1998-ci ildə Sumqayıt şəhərində 18 saylı tam orta məktəbdə almış Şöhrət 2009-cu ildə Sumqayıt şəhərində yerləşən Cəbrayıl rayonunun 5 saylı orta məktəbini bitirib, həmin il Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinə daxil olmuşdur. Tibb universitetini bitirdikdən sonra Müdafiə Nazirliyinin Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlamışdır. 3 ay sonra Tərtər rayonu ön xətdə yerləşən hərbi hissədə xidmətini davam etdirmişdir. 2018-ci ildə "Baş leytenant" rütbəsi verilmişdir. Qısa zamanda tibb xidməti rəisi vəzifəsinə təyin olunub. Hərbi xidmət dövründə çoxlu fəxri fərmanlar və təşəkkürnamələr ilə təltif edilmişdir. Şöhrət Qasımov aprel döyüşləri zamanı da müharibədə iştirak etmişdir. Döyüşlərdən sonra yaranmış həmlə taborunun yaradılmasında müstəsna rolu olmuşdur və həmin taborun məntəqə rəisi təyin olunmuşdur. Taborun keçirdiyi bütün təlimlərdə yaxından iştirak edir, dağ təlimi, səhra təlimi və digər çətin relyeflərdə tapşırıqları yerinə yetirirdi. Əsgərlərin sevimli komandirinə çevrilmiş, həm həkim, həm də hərbiçi kimi iki müqəddəs peşənin öhdəsindən layiqincə gəlmişdi. Azərbaycan ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş "Azərbaycan ordusunun yaranmasının 100 illiyi" medalı ilə təltif edilmişdir. Vətənpərvər həkim 2016-cı ildə Türkan Qasımzadə ilə ailə həyatı qurmuşdur. Milli Qəhrəman Murad Mirzəyevin şərəfinə oğluna Murad adı qoymuşdur.

İki övladı yadigar qaldı. Murad və İlayda.

İlk şəhid həkim, tibb xidməti rəisi, baş leytenant Qasımov Şöhrət 29.09.2020-ci ildə Suqovuşanda gedən qızğın döyüşlər zamanı yüzlərlə yaralı əsgərə, zabitlərə yardım göstərir. Yaralı, şəhid fərqi olmadan neçə-neçə insanları döyüş meydanından çıxarır. Həmin gün 3 dəfə xüsusi tapşırığı yerinə yetirir. Sonuncu dəfə yaralı təxliyə etməyə gedərkən erməni tankı ilə üzüzə gəlir. Özünün qəhrəmanlığı və əsgərlərimizin artilleriyadan açdığı top mərmisi ilə düşmən tankı məhv edilir. Bu an 2 erməni əsgəri yaralı halda düşüb qaçarkən düşmənin 2 canlı qüvvəsini məhv etmiş, yaralı əsgərimizi gətirərkən düşmən gülləsinə tuş gələrək şəhid olmuşdur.

Şöhrət Qasımov Sumqayıt şəhərində 2-ci Fəxri Xiyabanda dəfn olunmuşdur. Ölümündən sonra Ali Baş Komandan İlham Əliyevin verdiyi sərəncama əsasən 15.12.2020-ci ildə "Vətən uğrunda" medalı ilə, 15.12.2020-ci ildə "Vətənə xidmətinə görə" medalı ilə, 24.06.2021-ci ildə isə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təlif eidlmişdir.

Allah şəhidlərimizə rəhmət etsin, məkanları cənnət olsun.



***Allahverdi ABIOĞLU,***
***neftçi-publisist***